# “PROTEAN CONSTRUCTİON” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə

# "PROTEAN CONSTRUCTİON" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-4 |
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Məcmu gəlir haqqında hesabat | 6 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 8-9 |
| Maliyyə hesabatları üzrə qeydlər | 10-41 |

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ

Bu bəyannamə, "Protean Construction" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 9 iyun 2023-cü il tarixində Cəmiyyətin Direktorlar Şurası tərəfindən təsdiq edilmişdir.

**Direktorlar Şurası tərəfindən:**

| | |
|---|---|
| **Məhəmməd Təhməzov**<br>**İdarə Heyətinin sədri** | **Kəmalə Qasımova**<br>**Baş mühasib** |
| 9 iyun 2023-cü il<br>Bakı, Azərbaycan Respublikası | 9 iyun 2023-cü il<br>Bakı, Azərbaycan Respublikası |

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Protean Construction" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasına:

### *Şərti Müsbət Rəy*

Biz "Protean Construction" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy bölməsində göstərilmiş məsələlərin təsiri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

### *Şərti Müsbət Rəy üçün Əsaslar*

Mal-material ehtiyatlarının qalığının sayılması prosesini 31 dekabr 2022-ci il tarixindən sonra müşahidə etməyimizə baxmayaraq, sayım tarixindən hesabat tarixinədək mal-material ehtiyatları üzrə hərəkətin üzləşdirilməsi prosedurlarını həyata keçirmək üçün kifayət qədər müvafiq audit sübutu əldə edə bilməmişik. Biz həmçinin, Cəmiyyət tərəfindən həyata keçirilən illik mal-material ehtiyatının sayılması prosedurlarının tarixi bizim tapşırığı qəbul etdiyimiz tarixdən daha əvvəl olduğu üçün, 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə də Cəmiyyətin mal-material ehtiyatlarının qalıqlarının sayılması prosesini müşahidə etmək iqtidarında olmamışdıq. Biz, həmçinin Cəmiyyətin 31 dekabr 2022 və 2021-ci il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatda 3,836,745 AZN və 3,424,649 AZN məbləğlərində qeyd olunmuş Cəmiyyətin mal-material ehtiyatlarının qalıqlarının kəmiyyəti və vəziyyəti ilə bağlı alternativ üsullar vasitəsilə əminlik əldə edə bilməmişik. Bu məsələlərin nəticəsi olaraq, biz mal-material ehtiyatları, eləcə də məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda təqdim edilmiş elementlər ilə bağlı hər hansı bir düzəlişin tələb olunub-olunmadığını müəyyən edə bilməmişik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

ASSURANCE ADVISORY TAX LEGAL

Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## "PROTEAN CONSTRUCTİON" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il (yenidən təsnifləşdirilmiş) |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 32,162,471 | 17,341,232 |
| Əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri | | 436,225 | 1,208,615 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **32,598,696** | **18,549,847** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 8 | 3,836,745 | 3,424,649 |
| Avans ödənişləri | 9 | 1,333,542 | 292,375 |
| Debitor borcları | 10 | 130,094 | 3,211,984 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 7,745,804 | 12,542,096 |
| Digər cari aktivlər | 12 | 2,658,967 | 3,523,119 |
| **Cəmi cari aktivlər** | | **15,705,152** | **22,994,223** |
| **CƏMİ AKTİVLƏR** | | **48,303,848** | **41,544,070** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təxirə salınmış vergi öhdəliyi | 13 | 1,112,685 | 957,562 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **1,112,685** | **957,562** |
| **Cari öhdəliklər** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 14 | 11,848,270 | 13,350,910 |
| Ödəniləcək vergilər | | 3,919,654 | 3,067,553 |
| **Cəmi cari öhdəliklər** | | **15,767,924** | **16,418,463** |
| **Cəmi öhdəliklər** | | **16,880,609** | **17,376,025** |
| **KAPİTAL** | | | |
| Səhmdar kapitalı | 15 | 160,672 | 160,672 |
| Bölüşdürülməmiş mənfəət | | 31,262,567 | 24,007,373 |
| **Cəmi capital** | | **31,423,239** | **24,168,045** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **48,303,848** | **41,544,070** |

**Direktorlar Şurası tərəfindən:**

**Məhəmməd Təhməzov**
**İdarə Heyətinin sədri**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Kəmalə Qasımova**
**Baş mühasib**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "PROTEAN CONSTRUCTİON" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Müqavilələr üzrə gəlirlər | 16 | 43,470,487 | 27,169,584 |
| Müqavilələr üzrə xərclər | 17 | (22,029,971) | (15,408,511) |
| **Ümumi mənfəət** | | **21,440,516** | **11,761,073** |
| Ümumi və inzibati xərclər | 18 | (1,462,289) | (1,403,437) |
| **Əməliyyat mənfəəti** | | **19,978,227** | **10,357,636** |
| Ehtimal olunan kredit zərərlərinin (tutulması)/bərpası | 10 | (317,528) | 7,549,555 |
| Mənfəət vergisindən başqa digər vergilər | | (170,061) | (48,543) |
| Xarici valyuta (zərəri)/gəliri, xalis | | (26,950) | 44,559 |
| Faiz xərci | 19 | - | (108,621) |
| Digər xərclər, xalis | 20 | (60,478) | (116,732) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **19,403,210** | **17,677,854** |
| Mənfəət vergisi xərci | 13 | (3,871,590) | (3,538,712) |
| **İl üzrə xalis mənfəət** | | **15,531,620** | **14,139,142** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **15,531,620** | **14,139,142** |

**Direktorlar Şurası tərəfindən:**

**Məhəmməd Təhməzov**
**İdarə Heyətinin sədri**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Kəmalə Qasımova**
**Baş mühasib**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | **Səhmdar kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **160,672** | **20,992,961** | **21,153,633** |
| İl üzrə cəmi məcmu gəlir | - | 14,139,142 | 14,139,142 |
| Elan edilmiş dividendlər | - | (10,916,000) | (10,916,000) |
| Səhmdarlar tərəfindən digər vəsaitlərin geri götürülməsi | - | (208,730) | (208,730) |
| **31 dekabr 2021-ci il** | **160,672** | **24,007,373** | **24,168,045** |
| İl üzrə cəmi məcmu gəlir | - | 15,531,620 | 15,531,620 |
| Elan edilmiş dividendlər | - | (8,142,200) | (8,142,200) |
| Səhmdarlar tərəfindən digər vəsaitlərin geri götürülməsi | - | (134,226) | (134,226) |
| **31 dekabr 2022-ci il** | **160,672** | **31,262,567** | **31,423,239** |

**Direktorlar Şurası tərəfindən:**

**Məhəmməd Təhməzov**
**İdarə Heyətinin sədri**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Kəmalə Qasımova**
**Baş mühasib**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | | 19,403,210 | 17,677,854 |
| Mənfəət vergisindən əvvəlki mənfəətin xalis pul vəsaitlərinin axını ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | | |
| Əmlak, tikili və avadanlıqların amortizasiyası | 7 | 2,248,738 | 1,308,868 |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər | 7 | 4,758 | 1,829 |
| Ehtimal olunan kredit zərərlərinin tutulması/(bərpası) | 10 | 317,528 | (7,549,555) |
| Faiz xərci | 19 | - | 108,621 |
| Xarici valyuta zərəri/(gəliri), xalis | | 26,950 | (44,559) |
| Şübhəli avans ödənişlərinin silinməsi | 20 | 72,064 | 136,282 |
| Öhdəliyin silinməsi üzrə gəlir | 20 | (15,886) | (23,572) |
| **Dövriyyə kapitalı üzrə dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını:** | | **22,057,362** | **11,615,768** |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişiklik: | | | |
| Mal və material ehtiyatlarında dəyişiklik | | (412,096) | (2,459,322) |
| Avans ödənişlərində dəyişiklik | | (1,113,232) | 189,622 |
| Debitor borcları üzrə dəyişiklik | | 2,764,362 | 18,974,096 |
| Digər cari aktivlər üzrə dəyişiklik | | 864,152 | (2,437,945) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər üzrə dəyişiklik | | (1,496,262) | 4,453,200 |
| Ödəniləcək vergilər üzrə dəyişiklik | | (1,784,866) | - |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri:** | | **20,879,420** | **30,335,419** |
| Ödənilmiş mənfəət vergisi | | (1,079,500) | (711,599) |
| **Əməliyyat fəaliyyətindən yaranan xalis pul vəsaitləri** | | **19,799,920** | **29,623,820** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Əmlak, tikili və avadanlıqların satın alınması | 7 | (16,302,345) | (6,221,815) |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(16,302,345)** | **(6,221,815)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Ödənilmiş dividendlər | | (8,142,200) | (10,916,000) |
| Səhmdarlar tərəfindən digər vəsaitlərin geri götürülməsi | | (134,226) | (208,730) |
| Səhmdarlardan alınmış kreditlərin ödənilməsi | | - | (200,000) |
| Borc vəsaitləri üzrə daxilolmalar | | - | 1,100,000 |
| Borc vəsaitlərinin ödənilməsi | | - | (1,300,000) |
| Borc vəsaitləri üzrə ödənilmiş faiz | | - | (108,621) |
| **Maliyyə fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(8,276,426)** | **(11,633,351)** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə məzənnə fərqlərinin təsiri | | (17,441) | 1,512 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ ÜZRƏ XALİS (AZALMA)/ARTMA | | (4,796,292) | 11,770,166 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 11 | **12,542,096** | **771,930** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 11 | **7,745,804** | **12,542,096** |

**Direktorlar Şurası tərəfindən:**

**Məhəmməd Təhməzov**
**İdarə Heyətinin sədri**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Kəmalə Qasımova**
**Baş mühasib**

9 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.